# Uşaqların hüquq və azadlıqlarının müdafiəsi Ombudsmanın prioritet vəzifələrindəndir

## *20 Noyabr Ümumdünya Uşaqlar Günüdür*

***Bu günümüz və gələcəyimiz olan uşaqlar cəmiyyətin aparıcı qüvvəsi, potensial gücüdür. Uşaqlar naminə həyata keçirilən hər bir fəaliyyət önə çəkilməli və daim yüksək qiymətləndirilməlidir.***

***Uşaqlıq dövrü insanın daha həssas yanaşma tələb edən bir mərhələsi olduğundan, uşaqların hər zaman xüsusi diqqət və müdafiəyə ehtiyacları var. Uşaqların hüquqlarının müdafiəsi irqindən, cinsindən, sosial statusundan, doğulduğu yerdən və digər mənsubiyyətindən asılı olmayaraq təmin edilməlidir. Bütün uşaqlar sülh, ləyaqət, tolerantlıq, azadlıq, bərabərlik, həmrəylik, qayğı mühitində böyüməli və onların hüquqları və maraqlarının qorunması hər kəs tərəfindən təmin edilməlidir.***



**Səbinə ƏLİYEVA,**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman),**
**hüquq üzrə fəlsəfə doktoru.**

Uşaqların hüquqlarının müdafiəsi beynəlxalq səviyyədə təmin olunur. Belə ki, BMT-nin 1989-cu il, 20 noyabr tarixli Uşaq Hüquqları haqqında Konvensiyası (UHK) və Konvensiyanın 2000-ci il, 25 may tarixli Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolu və Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakültativ Protokolu, həmçinin şikayətlərin verilməsi mexanizmi ilə bağlı 2011-ci il, 19 dekabr tarixli Fakültativ Protokolu uşaq hüquqlarının müdafiəsi sahəsində dövlətlər üzərində öhdəliklər müəyyən edir.

Ölkəmiz BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına və bu Konvensiyanın 2000-ci ildə qəbul olunmuş iki Fakültativ Protokoluna qoşulmuşdur.

Uşaq hüquqları sahəsində ən mühüm sənədlərdən olan UHK uşaqların hərtərəfli inkişafı və layiqli həyat səviyyəsinin təmin edilməsi üçün iştirakçı dövlətlərin üzərinə öhdəlik qoyur. Azərbaycan bu Konvensiyanı ratifikasiya edən ölkə olaraq uşaq hüquqlarının qorunması və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində hüquqi, institusional və digər islahatlar üzrə tədbirlər görür.

Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən respublikamızda uşaq hüquqlarının təmin olunması istiqamətində bir sıra sosial, iqtisadi və hüquqi islahatlar həyata keçirilmiş, eyni zamanda bu sahədə mühüm qanunvericilik aktları və Dövlət proqramları qəbul edilmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə uşaqların hərtərəfli inkişafı üçün zəruri olan şərait yaradılmış, bir sıra sosial, təhsil və səhiyyə müəssisələri tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir edilmiş, bu istiqamətdə müxtəlif layihələr və çoxşaxəli fəaliyyət həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsində uşaq hüquqlarının təmin edilməsi, bu hüquqların həyata keçirilməsinə dövlət tərəfindən nəzarət edilməsi ilə bağlı mühüm müddəalar təsbit edilmişdir.

19 may 1998-ci il tarixli Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqları haqqında Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq, Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydası" təsdiq edilmişdir. Dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınmasıdır.

Uşaq hüquqlarının qorunmasında məhkəmədənkənar hüquq-müdafiə mexanizmi kimi milli insan hüquqları təsisatlarının böyük rolu var.

İnsan hüquqları sahəsində müstəqil monitorinq mexanizmi kimi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin əsas istiqamətlərindən biri də uşaq hüquqlarının təmin edilməsi vəziyyətinin öyrənilməsi, hüquqların müdafiəsi, təşviqi, pozulmasının qarşısının alınması və bərpasından ibarətdir.

Müvəkkil uşaq hüquqları üzrə fəaliyyətini Bakı şəhərində yerləşən mərkəzi Aparatı və əhatə etdiyi şəhər və rayonlar olmaqla Gəncə, Cəlilabad, Şəki və Qubada yerləşən dörd regional mərkəzləri vasitəsilə həyata keçirir.

Müvəkkil uşaq hüquqlarının etibarlı müdafiəsi üçün bu hüquqların pozulması ilə bağlı daxil olmuş müraciətlərin araşdırılması, uşaqların vəziyyətinin monitorinqi və dövlət müəssisələrində onların vəziyyətinin öyrənilməsi məqsədilə araşdırmaların aparılması, maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi, uşaq hüquqlarına dair milli qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması, bu sahədə fəaliyyət göstərən dövlət qurumları, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq istiqamətlərində fəaliyyət göstərir.

Bu fəaliyyətləri həyata keçirərkən uşaqların iştirakının təmin olunmasına xüsusi önəm verilir.

Ölkəmizdə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizm (MPM) funksiyalarının icrası məqsədilə Müvəkkil və Milli Preventiv Qrupun (MPQ) üzvləri tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, o cümlədən penitensiar müəssisələr, müvəqqəti saxlanılma yerləri, psixiatriya xəstəxanaları, uşaq evləri, internat müəssisələri və uşaqların yaşadığı və saxlanıldığı digər dövlət müəssisələrində müntəzəm olaraq başçəkmələr keçirilir.

Son dövrdə təsisatın fəaliyyətində baş verən mühüm yeniliklərdən biri Ombudsman Aparatında Uşaq hüquqlarının müdafiəsi sektorunun yaradılmasıdır.

Qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsiplərini, həmçinin BMT-nin Uşaq Hüquqları Komitəsinin və digər müvafiq beynəlxalq təşkilatların tövsiyələrini nəzərə alaraq, cari ildə Ombudsman Aparatında Uşaq hüquqlarının müdafiəsi sektoru yaradıldı. Uşaq hüquqları ilə bağlı ayrıca struktur bölmənin yaradılmasında məqsəd müvafiq sahədə fəaliyyətin və idarəetmənin daha da təkmilləşdirilməsindən ibarətdir.

Uşaq hüquqlarının müdafiəsi sektoru bu sahədə mövcud olan problemlərin sistemləşdirilməsinə, uşaq hüquqlarının səmərəli müdafiəsinin təşkil edilməsinə, uşaqlarla bağlı məsələlərdə onların iştirakının və əlçatanlığının təmin edilməsinə, onların pozulmuş hüquq və azadlıqlarının bərpa edilməsi ilə bağlı müraciətlərin operativ qaydada həllinə, bu sahədə ixtisaslaşmış dövlət qurumları və vətəndaş cəmiyyəti təsisatları, habelə müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsinə xidmət edir.

Ombudsman Aparatının fəaliyyətində olan digər yenilik təsisatın qaynar xətlərinin bir mərkəzdə birləşdirilərək, 24 saat ərzində fəaliyyət göstərən, müasir tələblərə cavab verən 916 nömrəli vahid Çağrı Mərkəzinin yaradılmasıdır.

Müasir informasiya texnologiyalarından istifadə edilməklə yaradılan bu Çağrı Mərkəzi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dünyada elan olunmuş COVID-19 pandemiyası dövründə şəxslərin, o cümlədən uşaqların, onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin müraciətlərinə baxılmasının effektivliyinin artırılmasına töhfə vermişdir.

Bu sahədə mövcud beynəlxalq və yerli müsbət təcrübələr öyrənilmiş, əməkdaşlara müvafiq təlimlər keçirilmiş, BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycan nümayəndəliyi və Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə əməkdaşlıq edilmişdir. Çağrı mərkəzinin fəaliyyət göstərməsi barədə əhali arasında məlumatlandırma işləri aparılır və bununla bağlı sosial çarx təqdim edilmişdir.

Eyni zamanda, uşaqlar və onların maraqlarını təmsil edən şəxslər elektron qaydada və sosial şəbəkələr (facebook, twitter) vasitəsilə də Müvəkkilə müraciət edə bilirlər. Tətbiq olunan bu yeniliklər insanların, o cümlədən uşaqların müraciət imkanlarının asanlaşdırılması və müraciətlərə baxılması işinin operativliyini artırmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" təsdiq edilmişdir.

Dövlət başçısının 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı", "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı", həmçinin "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı və "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nda aidiyyəti qurumlar tərəfindən uşaq hüquqlarının təmin olunması istiqamətində tədbirlərin icrası nəzərdə tutulmuş, bir sıra bəndlərdə Müvəkkilin iştirakı tövsiyə edilmişdir.

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının qəbul olunmasının 32-ci ildönümü ərəfəsində Müvəkkil tərəfindən 20 oktyabr - 20 noyabr tarixlərində ölkədə "Uşaq hüquqları aylığı" elan edilmişdir. Bununla bağlı ictimaiyyətə ünvanlanan müraciətdə uşaq hüquqlarının təmini, təbliği və müdafiəsi ilə məşğul olan hər bir qurum bu aylığa qoşulmağa dəvət edilmiş, xüsusi karantin rejimi qaydalarına əməl edilməklə uşaqlarla bağlı təşkil olunacaq bütün tədbirlərdə onların birbaşa iştirakını təmin etməyə çağırılmışdır.

Aylığın keçirilməsində məqsəd uşaqlara diqqət və qayğının daha da artırılması, uşaq hüquqlarının həyata keçirilməsinin və onların daha effektiv müdafiəsinin təmin olunmasıdır.

Uşaq hüquqları aylığı çərçivəsində Ombudsman Aparatı və Regional Mərkəzlər tərəfindən bir sıra tədbirlər görülmüşdür.

Müvəkkil Vətən müharibəsi şəhidlərinin ailələrini, həmçinin şəhidlərin ölümündən sonra doğulan övladlarını ziyarət etmiş, onların qayğıları ilə maraqlanmışdır.

Aylıq çərçivəsində uşaq hüquqları üzrə maarifləndirmə işinin gücləndirilməsi və bu sahədə biliklərin daha da təkmilləşdirilməsi məqsədilə Ombudsman Aparatı tərəfindən Bakı şəhərinin 12 rayonu üzrə bir sıra təhsil müəssisələrini əhatə edən şagird və müəllim heyəti üçün onlayn formatda təlimlər təşkil edilmişdir.

Bununla yanaşı, Müvəkkilin Gəncə, Şəki, Quba və Cəlilabad Regional Mərkəzləri tərəfindən ümumilikdə 120-dən artıq ümumtəhsil müəssisəsində şagird və müəllimlər üçün təlimlər keçirilmişdir. Bununla yanaşı, yerli icra hakimiyyətinin nümayəndələri, polis əməkdaşları, psixoloqlar, uşaq müəssisələrinin rəhbərləri, təhsilverənlər və uşaqlarla işləyən digər şəxslər üçün maarifləndirici tədbirlər təşkil olunmuşdur.

Təlim zamanı iştirakçılara uşaq hüquqlarına dair mövcud normativ-hüquqi aktlar və hüquqi müdafiə vasitələri haqqında məlumat verilib, ayrı-seçkiliyin formaları və onunla mübarizə üsulları, uşaqların istismar, sui-istifadə, laqeyd rəftar və zorakılıqdan müdafiəsi, erkən nikah, uşaq əməyi, zərərli təsirlərdən mühafizə məsələlərinə toxunulmuşdur.

Aylıq çərçivəsində MPQ üzvləri tərəfindən paytaxtda və regionlarda başçəkmələr həyata keçirilmişdir. Belə ki, 11 nömrəli İnteqrasiya təlimli internat məktəbinə, 8 nömrəli Sanatoriya tipli internat məktəbinə, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 və 5 nömrəli Respublika xüsusi internat məktəblərinə, eləcə də 2 və 3 saylı uşaq evlərinə xəbərdarlıq etmədən keçirilən başçəkmələrdə müxtəlif yaş qruplarından olan uşaqların hüquqlarının təmini vəziyyəti, saxlanma şəraiti, habelə müəssisə əməkdaşlarının onlarla rəftarı məsələləri öyrənilmişdir.

Bununla yanaşı, Gəncə körpələr evi və uşaq evində, Qubada yerləşən Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbində, Quba Xüsusi Peşə məktəbində, O.Mirzəyev adına Lənkəran şəhər qarışıq tipli uşaq evində, Goranboy, Tovuz, Gəncə, Şəki, Salyan, Neftçala şəhər inteqrasiya təlimli internat tipli gimnaziyalarda başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı adıçəkilən müəssisələrin sinif, yataq və istirahət otaqlarına, mətbəxinə, yeməkxanasına, ərzaq anbarına baxış keçirilib, loqopedik və psixoloji işin təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır. Başçəkmələrin yekununda müəyyən olunmuş çatışmazlıqların aradan qaldırılması məqsədilə müvafiq tədbirlər görülmüş, müəssisələrin rəhbərliyinə tövsiyələr verilmiş, o cümlədən Ombudsmanın 916 Çağrı Mərkəzi barədə məlumatı özündə əks etdirən plakatlar təqdim edilmişdir.

Tərəfimizdən elan olunmuş Uşaq hüquqları aylığı təşəbbüsünə dövlət qurumları, mərkəzi və yerli icra hakimiyyəti orqanları, o cümlədən qeyri-hökumət təşkilatları da qoşulmuş və aylıq çərçivəsində uşaq hüquqlarının müdafiəsi istiqamətində müvafiq tədbirlər həyata keçirmişlər.

Görülən işlər yuxarıda adıçəkilən Dövlət proqramlarında Müvəkkilin iştirakı tövsiyə edildiyi tədbirlərin icrasına töhfə vermiş olur.

Son iki ilə yaxın müddət ərzində ölkəmizdə uşaqlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən elan olunmuş COVID-19 pandemiyası ilə bağlı yaranmış çətinliklərlə yanaşı, İkinci Qarabağ müharibəsinin fəsadları ilə də üzləşmişlər.

Məlumdur ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz işğalda olan əzəli Azərbaycan torpaqlarını azad etmiş, 44 günlük Vətən müharibəsində zəfər çalmışdır.

Bu müharibə dövründə Ermənistan tərəfinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində 10-dan çox uşaq həlak olmuş, 50-si yaralanmış, bir çox uşaq isə valideynlərini itirmişdir. Habelə, mülki obyektlərin hədəfə alınması,bir çox yaşayış evlərinin, təhsil və səhiyyə müəssisələrinin dağıdılması uşaqların təhsil, sağlamlıq və digər hüquqlarının pozulmasına gətirib çıxarmışdır. Bununla yanaşı, atılan intensiv atəşlər uşaqların psixoloji sarsıntı keçirməsinə səbəb olmuşdur.

Uşaqlar hərbi münaqişələr zamanı heç bir halda hədəf obyektinə çevrilməməli və müharibənin fəsadlarından əziyyət çəkməməlidirlər.

Ombudsman təsisatı olaraq, Ermənistan tərəfindən Azərbaycanın mülki yaşayış məntəqələrinin raket hücumlarına məruz qalması faktlarını beynəlxalq humanitar hüququn tələblərinin kobud pozuntusu kimi diqqətə çatdıraraq, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri nəticəsində dağılan mülki obyektlərin yerləşdiyi ərazilərdə tərəfimizdən faktaraşdırıcı missiyalar həyata keçirilmiş, araşdırmalar nəticəsində əldə olunan faktoloji materiallar əsasında hesabatlar hazırlanaraq müvafiq qurumlara göndərilmişdir.

Müharibə zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə hərbi hücumları nəticəsində baş vermiş uşaq tələfatı ilə bağlı tərəfimizdən xüsusi hesabat hazırlanaraq beynəlxalq qurumlara göndərilmişdir. Bununla yanaşı, həmin müharibə cinayətləri nəticəsində qurbana çevrilmiş uşaqların pozulmuş hüquq və azadlıqları ilə bağlı beynəlxalq təşkilatlara və aidiyyəti qurumlara müvafiq bəyanat və müraciətlər göndərilmiş, dünya ictimaiyyətinə bu ədalətsizliyə hüquqi müstəvidə düzgün qiymət verməklə bağlı çağırışlar edilmişdir.

Müvəkkil UNICEF-in 28 oktyabr 2020-ci il tarixli, Dağlıq Qarabağ və ətraf ərazilərdə davam edən döyüşlərlə bağlı verdiyi bəyanatında qətlə yetirilmiş azərbaycanlı uşaqların sayının, soyadlarının və həlak olduqları rayonların adlarının bəyanatda göstərilmədiyini əsas götürməklə qəti etirazını bildirmiş və UNICEF-in icraçı direktoruna həmin faktlarla bağlı müraciət etmişdir. Müraciətdə qeyd olunan faktlara münasibətdə UNICEF tərəfindən mövqe nümayiş etdirilməsi, Ermənistanın müharibə cinayətlərinin qarşısının alınması ilə bağlı təsirli tədbirlər görülməsi, uşaqların ən ümdə maraqlarının təminini ədalət və insanlıq naminə tələb edilməklə birgə faktaraşdırıcı missiyanın keçirilməsi təklif edilmişdi.

Ermənistanın təcavüzü nəticəsində zərərçəkmiş ailə və uşaqların psixoloji sağlamlığının bərpa edilməsinin zəruriliyi nəzərə alınaraq, Ombudsmanın təşəbbüsü ilə geniş əhali qruplarını əhatə etməklə psixoloji yardım üzrə müvafiq fəaliyyət həyata keçirilmişdir.

Cari ildə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı Müvəkkil dünya ictimaiyyətinə videomüraciət ünvanlayaraq heç bir əlamətinə görə ayrı-seçkiliyə yol vermədən uşaqların hüquqlarının qorunmasına çağırış edib.

Müvəkkil müraciətində İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində qurbana çevrilmiş uşaqların pozulmuş hüquqlarına toxunmuş, 4 iyun Aqressiya qurbanı olan Uşaqların Beynəlxalq Günü ərəfəsində dünya ictimaiyyətini uşaqları hər cür zorakılıqdan, təcavüzdən müdafiə etməyə çağırmışdır.

Qlobal pandemiya kimi bütün xalqlar və dövlətlər üçün real təhlükə mənbəyinə çevrilən və sürətlə yayılan COVID-19 infeksiyasının fəsadları uşaqlardan da yan keçmir. Belə ki, məlum xəstəlik səbəbindən uşaqların səhhətində yaranmış problemlərlə yanaşı, distant təhsilə keçid, təhsil və digər müəssisələrin, uşaq yaradıcılıq mərkəzlərinin fəaliyyətinin dayandırılması, müəssisələrdə valideynlərlə görüşlərin məhdudlaşdırılması, ailələrdə psixoloji gərginlik səbəbindən məişət zorakılığı hallarının artması və digər bu kimi məqamlar uşaqların inkişafına mənfi təsir göstərmişdir.

Xüsusi karantin rejimi ilə yanaşı ölkəmizdə 2020-ci il sentyabrın 27-dən hərbi vəziyyətin də tətbiq olunduğu dövrdə təhsil, sağlamlıq, uşaq hüquqlarının təmini sahəsində yaranan problemlər və onların həlli istiqamətində Müvəkkil tərəfindən müvafiq işlər görülmüş, bu həssas dövr ərzində yaranmış çətinliklərin aradan qaldırılmasına səy göstərilmişdir.

Müvəkkil uşaq hüquqlarının etibarlı müdafiəsi və təbliği sahəsində beynəlxalq təcrübənin öyrənilməsinə, beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verir. Bu məqsədlə, Müvəkkil və Aparatın əməkdaşları uşaq hüquqlarının müdafiəsinə həsr olunmuş müxtəlif beynəlxalq tədbirlərdə, o cümlədən Avropanın Uşaq Ombudsmanları Şəbəkəsinin üzvü kimi bu qurumun illik konfranslarında iştirak edir, fikir və təcrübə mübadiləsi aparırlar.

Müvəkkil və UNICEF-in Azərbaycandakı nümayəndəliyi arasında imzalanan Birgə İş Planına əsasən həyata keçirilən fəaliyyət çərçivəsində uşaqların vəziyyətinin öyrənilməsinə dair araşdırmalar aparılır, uşaqların saxlandığı, təhsil aldığı müəssisələrdə onlara qarşı baş verən zorakılıq hallarının müəyyən edilməsi məqsədilə həmin müəssisələrin birgə monitorinqi həyata keçirilir. Aparılan araşdırmaların və monitorinqlərin nəticələri və mövcud sahədə olan problemlərin aradan qaldırılması istiqamətində irəli sürülən təklif və tövsiyələr aidiyyəti qurumlara göndərilir.

Ombudsman Aparatı ilə UNICEF arasında 2021-2025-ci illər üzrə Əməkdaşlıq Proqramı çərçivəsində 2021-2022-ci illər üçün imzalanmış İş Planına əsasən, uşaq hüquqlarının müdafiəsi sahəsində MPQ tərəfindən başçəkmələrin keçirilməsi, eləcə də hüquq pozuntusu törətmiş uşaqların vəziyyətinin öyrənilməsinə dair araşdırma aparılması və digər istiqamətlər üzrə əməkdaşlıq edilmişdir.

Uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyət çərçivəsində Suriyada davam edən münaqişəyə cəlb edilmiş uşaqların vəziyyəti diqqətdə saxlanmışdır.

Azərbaycan vətəndaşları olan yaxın qohumlarını Suriyada axtaran bir sıra şəxslər Ombudsmana müraciət edərək, müxtəlif qrupların tərkibində döyüşən və oradakı düşərgələrdə girov saxlanılan qohumlarının ailə üzvlərinin, o cümlədən qadın və uşaqların respublikamıza qaytarılmasında köməklik göstərilməsini xahiş etmişlər. Qeyd olunan məsələ ilə bağlı Müvəkkil digər ölkələrin milli insan hüquqları təsisatları ilə əməkdaşlıq etməkdədir. Müvəkkil həmin ölkədə qalan vətəndaşlarımızın qaytarılması istiqamətində zəruri tədbirlərin görülməsi məqsədilə müxtəlif vaxtlarda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, həmçinin digər səlahiyyətli dövlət qurumlarına müraciətlər etmişdir.

Qeyd edək ki, Azərbaycan hökuməti tərəfindən görülmüş tədbirlər nəticəsində 2021-ci ilin 27 may tarixində 14-ü uşaq olmaqla, Suriyanın Cerabus şəhərindəki Amerna düşərgəsində saxlanılan 20 nəfər Azərbaycan vətəndaşının vətənə repatriasiyası həyata keçirilmişdir. Bununla yanaşı, cari ildə Türkiyə Respublikasının Hatay vilayətinin İskəndərun uşaq evində saxlanılan 4 uşaq, İraq Respublikasının cəzaçəkmə müəssisələri və uşaq evlərində saxlanılan Azərbaycan Respublikasının vətəndaşı olan 38 uşaq ölkəyə qaytarılıb.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərində uşaq hüquqlarının müdafiəsi sahəsində göstərilən mühüm hədəflər uşaqların rifahının yüksəlməsi istiqamətində fəaliyyətin daha da gücləndirilməsini zəruri edir.

Uşaqların hüquq və maraqlarının daha etibarlı təmin olunması üçün bu sahədə fəaliyyət göstərən bütün qurumlar əlaqəli şəkildə fəaliyyət göstərərək uşaqların müdafiəsi və sosial rifahı üçün çalışmalıdır.

Sonda 20 Noyabr - Ümumdünya Uşaqlar Günü münasibətilə bütün uşaqları, xüsusilə şəhidlərin və qazilərin uşaqlarını təbrik edir, onlara təhlükəsiz və firavan həyat arzulayıram.

Gəlin, bütün uşaqların parlaq gələcəyi naminə səylərimizi birləşdirək!

Uşaqlara xoşbəxt dünya bəxş edək! ■